AZƏRBAYCAN RESPUBLİKASI
DAXİLİ İŞLƏR NAZİRLİYİ

POLİS AKADEMİYASI

“DAXİLİ İŞLƏR ORQANLARININ İNZİBATİ FƏALİYYƏTİ”
KAFEDRASI

**“İnzibati hüquq” fənni üzrə**

# M Ü H A Z İ R Ə

(bakalavriat səviyyəsi üzrə əyani təhsilalanlar üçün)

**Mövzu № 13. “Müdafiə sahəsində dövlət idarəetməsi”**

**Vaxt: 4 saat**
*Mühazirə: 2 saat*
*Seminar: 2 saat*

**Tərtib etdi:** DİO-nun inzibati fəaliyyəti” kafedrasının rəisi, polis polkovniki, h.ü.f.d., dosent Rafiq Nəcəfquliyev

Mühazirə kafedranın iclasında müzakirə olunmuş və təsdiq edilmişdir.

Protokol № _________________ 2017-ci il

Dəyişiklik və əlavə edilib: “____”_____________ 2018-cı il.

Dəyişiklik edilib: “____”_____________ 2019-cu il.

Bakı – 2017

## Mövzu № 13. Müdafiə sahəsində dövlət idarəetməsi

**Plan:**

**Giriş**

1. Müdafiə sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi formaları.
2. Müdafiə Nazirliyi - müdafiə sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.
3. Silahlı Qüvvələrdə dövlət qulluğunun anlayışı, hüquqi əsasları və şərtləri.

**Nəticə**

**İstifadə və tövsiyə edilən mənbələr:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995 (2016).
2. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının 29 dekabr 2017-ci il tarixli Qanunu.
3. "Müdafiə haqqında" Azərbaycan Respublikasının 26 noyabr 1993-cü il tarixli Qanunu.
4. "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının 25 dekabr 1991-ci il tarixli Qanunu.
5. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 23 sentyabr 1994-cü il tarixli Qanunu.
6. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 3 oktyabr 1997-ci il tarixli Qanunu.
7. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının 23 dekabr 2011-ci il tarixli Qanunu.
8. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2011-ci il tarixli Fərmanı.
9. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının 29 dekabr 2017-ci il tarixli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2018-ci il tarixli 1794 №-li Fərmanı.
10. Dərslik. İnzibati hüquq. A.Abdullayev, F.Nağıyev. Bakı, 2008.
11. Administrative law by the late Sir William Wade and Christopher Forsyth. Great Clarendon Street, Oxford, United Kingdom-2014.
12. Актуальные проблемы административного права и административного процесса: Сборник научных статей / Отв. ред.М. А. Штатина. — М.: РГУП, 2017. — 280 с.
13. Dərs vəsaiti. İnzibati hüquq (Xüsusi hissə). V.Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı, 2016.
14. Dərslik. İnzibati hüquq. R. Nəcəfquliyev. Bakı, 2018
15. Учебное пособие. Административное право. Мазурин С.Ф., Прокофьев. СПб, 2019. – 312 с.
16. www.president.az
17. www.e-qanun.az.
18. www.mod.gov.az.
19. www.mdi.gov.az.

# Giriş

Qloballaşan dünyada ölkələrin müdafiə olunmaları üçün Silahlı Qüvvələr yaratması və onun modernləşdirilməsi stateji mahiyyətə malikdir. Cəmiyyətin inkişafı prosesində arzuolunan təzahürlər arasında ictimai sabitlik, ölkədə hüquq və qanunçuluq qaydalarının möhkəmləndirilməsi, həmçinin real silahlı hücum təhlukəsindən effektiv müdafiə hər zaman aktuallıq kəsb edir.

Bütün dünyada olduğu kimi, respublikamızın müdafiəsi Silahlı Qüvvələrin, iqtisadiyyatın, əhalinin, ərazinin müdafiəyə daim hazır olmasına əsaslanır və dövlətin hərbi doktrinasına uyğun olaraq təşkil edilir.

Azərbaycan Respublikasının hərbi doktrinası Silahlı Qüvvələrin quruculuğunda “müdafiə yetərliyi” prinsipi ilə müəyyənləşdirilir və Azərbaycan Respublikası heç bir dövlətə qarşı ərazi iddiasının olmamasına və əgər təcavüz obyekti olmasa beynəlxalq hüquqa əsaslanan öhdəliklərdən başqa heç vaxt heç, bir dövlətə qarşı birinci hərbi əməliyyatlara başlamayacağına əsaslanır. Bu baxımdan barəsində danışılacaq mövzunun birinci sualında müdafiə sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi formaları barədə məlumatlar təhlil olunacaqdır.

Mühazirənin ikinci sualında müdafiə sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin inzibati – hüquqi statusu haqqında məlumatlar şərh olunacaqdır.

Mühazirənin yekun sualı olan üçüncü sual üzrə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət keçmənin anlayışı, hüquqi əsasları və şərtləri barədə məlumatlar veriləcəkdir.

**Sual 1.** Müdafiə sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi formaları

Azərbaycan Respublikası müstəqil dövlət və beynəlxalq hüququn subyekti kimi «Azərbaycan Respublikasının dövlət müstəqilliiyi haqqında» Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq öz silahlı qüvvələrinə malikdir. Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi dövlət qurumu olub, Azərbaycan Respublikasının suverenliyinin, müstəqilliyinin, ərazi bütövlüyünün və bölünməzliyinin silahlı müdafiəsi üçün təsis olunur. Müharibə şəraitində Silahlı Qüvvələr öz vəzifələrini sərhəd qoşunları, daxili qoşunlar və Azərbaycan Respubllikasının qanunvericiliyində nəzərdə tutulmuş digər qoşunlarla əlaqədə yerinə yetirir. Qeyd edilməsi yerinə düşər ki, əbədiyaşar prezidentimiz H.Əliyevin dövlətə rəhbərlik etdiyi ilk dövrlərdən müasir günümüzə qədər ölkəmizdə həyata keçirilən islahatlar ordu quruculuğunu da əhatə etmişdir. **Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin təbiirincə desək,** ***"Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır!"***

Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevin siyasi hakimiyyətinin ilk günlərindən hər birimizin qürür mənbəyi sayılan ordumuza sosial-siyasi və iqtisadi dəstək dövlətin prioriteti hesab olunur. *Belə ki, dövlət büdcəsinin böyük bir hissəsi ilə ordu quruculuğunun maliyyələşməsi təmin olunur. 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklərə görə ordu quruculuğu sahəsində növbəti bir yenilik silahlı qüvvələrimizin konstitusiya hüquqi statusunun genişləndirilməsi ilə əlaqədar olub. Daha dəqiq desək,* Azərbaycan Respublikası Konstitusiyasının 9-cu maddəsinin I hissəsinə əsasən, *Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir.*

*Ordu quruculuğu sahəsində aparılan islahatlar ölkəmizin bütün coğrafiyasını əhatə edir. Belə ki, naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, Silahlı Qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradılıb.*

Göründüyü kimi, dünya təcrübəsinə uyğun olaraq ölkəmizin müdafiəsi üçün aidiyyəti təşkilati-hüquqi tənzimləmə mexanizmi müasir dövrün tələblərindən irəli gələrək təkmilləşdirilir. Azərbaycan Respublikası müdafiəsinin təşkili əsasları “Müdafiə haqqında” Azərbaycan Respublikasının 26 noyabr 1993-cü il tarixli Qanununda normativ məzmun almışdır. *Azərbaycan Respublikasının müdafiəsi dedikdə,* dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün, suverenliyinin və əhalinin təcavüzdən qorunmasının təmin olunması məqsədilə dövlət tərəfindən həyata keçirilən siyasi, iqtisadi, hüquqi, hərbi və sosial tədbirlər sistemi başa düşülür.

*Azərbaycan Respublikasının müdafiəsinin məqsədi* istənilən vaxtda və şəraitdə Azərbaycan Respublikasına qarşı hərbi basqının qarşısını almaq və mümkün təcavüzü silahla dəf etmək üçün bütün zəruri şərtlərin yaradılmasıdır.

18 oktyabr 1991-ci il tarixli Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının 29-cu maddəsinə əsasən, “Azərbaycan Respublikasını müdafiə etmək Azərbaycan Respublikası vətəndaşının müqəddəs borcudur. Qanunla müəyyən edilmiş hüdudlarda və növlərdə hərbi xidmət məcburidir”.

*Ölkəmizin müdafiəsi Silahlı Qüvvələrin,* iqtisadiyyatın, əhalinin, ərazinin müdafiəyə daim hazır olmasına əsaslanır və dövlətin hərbi doktrinasına uyğun olaraq təşkil edilir. Azərbaycan Respublikasının hərbi doktrinası Silahlı Qüvvələrin quruculuğunda “müdafiə yetərliyi” prinsipi ilə müəyyənləşdirilir və Azərbaycan Respublikası heç bir dövlətə qarşı ərazi iddiasının olmamasına və

əgər təcavüz obyekti olmasa beynəlxalq hüquqa əsaslanan öhdəliklərdən başqa heç vaxt heç, bir dövlətə qarşı birinci hərbi əməliyyatlara başlamayacağına əsaslanır.

*Azərbaycan Respublikası müdafiəsinin təşkili aşağıdakılardan ibarətdir:*

- dövlətin hərbi siyasətinin və doktrinasının formalaşdırılması;
- təcavüzün qarşısının alınması üçün beynəlxalq aləmdə müvafiq tədbirlərin görülməsi;
- taktiki hərb elminin inkişafı;
- müdafiə və hərbi quruculuq məsələlərinin hüquqi tənzimlən-məsi;
- silahlı qüvvələrin strukturunun hazırlanması, formalaşdırılması və təkmilləşdirilməsi, zəruri sayının təmin olunması, onların yüksək döyüş qabiliyyətinin, döyüş və səfərbərlik hazırlığının saxlanması;
- dövlətin hərbi-texniki siyasətinin hazırlanması və həyata keçirilməsi, Silahlı Qüvvələrin silah, hərbi texnika, ərzaq, geyim və digər material ehtiyatları ilə təmin edilməsi;
- dövlət orqanlarının, iqtisadiyyatın və əhalinin müharibə dövründə fəaliyyət göstərməsi üçün səfərbərlik hazırlığı;
- dövlət sirrinin və hərbi sirrin qorunmasının təmin edilməsi.

***Müdafiə sahəsində dövlət idarəetməsi dedikdə,*** Azərbaycan Respublikasının təhlükəsizliyi və müdafiəsinin təmini məqsədilə dövlətin hərbi siyasətinin və doktrinasının icrası üzrə səlahiyyətli subyektlərin icraedici-sərəncamverici fəaliyyəti başa düşülür.

**Müdafiə sahəsində dövlət idarəetməsinin təşkilati-hüquqi formalarına aiddir:**

- ✓ hərbi vəzifəlilərin hərbi xidmət keçmələrinin təşkili üzrə fəaliyyət;
- ✓ hərbi vəzifəli olmayanlar, hərbi uçota götürülməli olmayan və ya hərbi uçotdan çıxarılmış, o cümlədən istefaya keçirilmiş vətəndaşlara aid siyahıların aparılması üzrə fəaliyyət;
- ✓ hərbi xidmətin başa çatmasından sonra vətəndaşların ehtiyat heyətə daxil edilməsinin təşkili üzrə fəaliyyət.

*Müdafiənin əsasını* Azərbaycan Respublikasının Silahlı Qüvvələri təşkil edir. Azərbaycan Respublikasının Silahlı Qüvvələri 29 dekabr 2017-ci il "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, Azərbaycan Respublikasının Silahlı Qüvvələri dedikdə, Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün qorunması, habelə təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsi məqsədilə yaradılmış, Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarət hərbi təsisat başa düşülür.

Qanunvericinin mövqeyinə görə Azərbaycan Ordusu - Silahlı Qüvvələrin əsas tərkib hissəsi olmaqla Azərbaycan Respublikasına qarşı yönəlmiş təcavüzün dəf edilməsini, ərazi bütövlüyünün və toxunulmazlığının silahlı müdafiəsini təmin edən və fəaliyyəti Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən təşkil edilən silahlı birləşmədir.

***Müdafiə sahəsində dövlət idarəetməsinin prinsiplərinə aşağıdakılar aid edilə bilər:***

- "qanunçuluq";
- "nizami ordu";
- "qarışıq komplektləşdirmə";
- "kadr";
- "mərkəzləşdirilmiş və vahid rəhbərlik";
- "yüksək hərbi intizam";
- "daimi döyüş və səfərbərlik hazırlığı";
- "hərbi qulluqçuların sosial-hüquqi müdafiəsinin təmin olunması" prinsipləri və s.

***Azərbaycan Respublikasının Silahlı Qüvvələri quru qoşunlarından, hava hücumundan müdafiə və hərbi-dəniz qüvvələrindən ibarətdir.***

Təşkilati cəhətdən Azərbaycan Respublikası Silahlı qüvvələri Əlahiddə Ümumqoşun Ordusundan, birliklərdən, birləşmələrdən, hərbi hissələrdən, hərbi təşkilatlardan və hərbi təhsil müəssisələrindən ibarətdir. Azərbaycan Respublikası Silahlı Qüvvələrin strukturu, sayı, silahları Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq olunur. Azərbaycan Respublikası Silahlı qüvvələrinin təminatı əsasən dövlət büdcəsindən ayırmalar və Azərbaycan ordusuna xalqın köməkliyi adlı hesab vasitəsilə həyata keçirilir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının hərbi-vətənpərvərlik tərbiyəsi ümumbəşəri dəyərlər və Azərbaycan xalqının milli-tarixi ənənələri ruhunda həyata keçirilir. Siyasi məqsədlər güdən hər hansı təşkilatların və həmkarlar ittifaqlarının Azərbaycan Respublikası Silahlı Qüvvələrində fəaliyyət göstərməsinə icazə verilmir. Müdafiə sahəsində idarəetmə silahlı qüvvələrdə ciddi mərkəzləşdirilmiş vahid rəhbərlik və hərbi intizam əsasında qurulur.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinə rəhbərliyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikası hökuməti həyata keçirir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə əsasən Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi aşağıdakı səlahiyyətlərə malikdir:

♦ Azərbaycan Respublikası Milli Məclisinin təsdiqi üçün hərbi doktrinanın və hərbi quruculuq konsepsiyasının layihələrinə, silahların və hərbi texnikanın dövlət inkişaf proqramına, Silahlı Qüvvələrin ümumi strukturu və sayı haqqında təkliflərini təqdim edir;

♦ Müdafiə nazirini vəzifəyə təyin edir və vəzifədən azad edir;

♦ ali zabitlər tərəfindən tutulmalı olan hərbi vəzifələrə hərbi qulluqçuları təyin edir, habelə vəzifədən azad edir: “ordu generalı” hərbi rütbəsinin verilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir;

♦ qanunla nəzərdə tutulmuş hallarda hərbi rütbələr verir;

♦ Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi məktəblərini, ali məktəblərin hərbi kafedralarını və elmi-tədqiqat təşkilatlarını yaradır və ləğv edir;

♦ Azərbaycan Respublikası Konstitusiyası və qanunları hüdudlarında müvafiq orqanların müdafiə sahəsində səlahiyyətlərini, təşkilini və fəaliyyət qaydasını müəyyənləşdirir və onların fəaliyyətinə rəhbərlik edir;

♦ birgə müdafiə və hərbi əməkdaşlıq, kollektiv təhlükəsizlik və tərksilah məsələləri barəsində danışıqlar aparır və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalayır;

♦ Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişaf, səfərbərlik, yerləşdirilmə və tətbiq planlarını, iqtisadiyyatın və idarəetmənin səfərbərlik planlarını, Azərbaycan Respublikasının mülki müdafiə planını və ərazi müdafəisi haqqında Əsasnaməni təsdiq edir;

♦ Azərbaycan Respublikasının bütün ərazisində və ayrı-ayrı yerlərdə hərbi vəziyyət tətbiq edir, Azərbaycan Respublikası hərbi basqına məruz qaldıqda isə müharibə vəziyyəti elan edir və bu məsələləri dərhal Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edir, ümumi və ya qismən səfərbərlik və səfərbərlik üzrə çağırılanlar barədə tərxisetmə elan edir;

♦ “Hərbi vəziyyət haqqında” Qanuna müvafiq olaraq hərbi dövrün dövlət idarəçilik orqanlarını yaradır və ləğv edir;

♦ hərbi əməliyyatlar aparılması barədə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə əmr verir;

♦ Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir;

♦ Azərbaycan Respublikası vətəndaşlarının müddətli hərbi xidmətə çağırılması və müddətli hərbi xidmət qulluqçularının ehtiyata buraxılması barədə fərmanlar verir;

♦ hərbi qulluqçuların hərbi geyim formasının geyilməsi və fərqlənmə nişanlarının sancılması qaydasını təsdiq edir;

♦ Azərbaycan Respublikasının Prezidenti müdafiə sahəsində dövlət siyasətinin formalaşdırılması üçün məşvərətçi orqan yarada bilər. Belə orqanın səlahiyyəti Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyənləşdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti aşağıdakı səlahiyyətlərə malikdir:

♦ silahlı qüvvələrin vəziyyətinə görə məsuliyyət daşıyır;

♦ silahlı qüvvələrin silah, hərbi texnika, döyüş sursatı və başqa vasitələrlə təchiz olunmasını təşkil edir;

♦ müdafiə və silahlı qüvvələrin ehtiyatları üçün maddi-texniki, ərzaq, geyim və digər ehtiyacların həcmini müəyyənləşdirir;

♦ səfərbərlik ehtiyatlarına maddi sərvətlərin toplanması planını təsdiq edir;

♦ ölkə iqtisadiyyatının səfərbərlik hazırlığına və səfərbərlik üzrə işə başlanmasına, onun hərbi vəziyyət şəraiti rejiminə keçirilməsinə rəhbərlik edir;

♦ mülki və ərazi müdafiəsinin ümumi planlaşdırılmasını təşkil edir və onun yerinə yetirilməsinə nəzarət edir;

♦ silahların və strateji materialların ixracı üzərində nəzarəti təşkil edir;

♦ vətəndaşların hərbi uçot, ixtisasları üzrə və zabit kadrlarının hazırlanması qaydasını, sənaye və başqa müəssisə və təşkilatlarla hərbi nümayəndəliklərin yaradılması və fəaliyyət qaydasını müəyyənləşdirir;

Azərbaycan Respublikasının Nazirlər Kabineti hərbi qulluqdan ehtiyata və ya istefaya buraxılmış şəxslərin, onların ailələrinin sosial və hüquqi təminatarına dair qanunvericiliyin icrasını təmin edir.

***Birinci suala yekun olaraq qeyd olunmalıdır ki,*** Azərbaycan Respublikasının müdafiəsi dedikdə, dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün, suverenliyinin və əhalinin təcavüzdən qorunmasının təmin olunması məqsədilə dövlət tərəfindən həyata keçirilən siyasi, iqtisadi, hüquqi, hərbi və sosial tədbirlər sistemi başa düşülür. *Azərbaycan Respublikasının müdafiəsinin məqsədi* istənilən vaxtda və şəraitdə Azərbaycan Respublikasına qarşı hərbi basqının qarşısını almaq və mümkün təcavüzü silahla dəf etmək üçün bütün zəruri şərtlərin yaradılmasıdır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, hərbi qulluqçularının hərbi-vətənpərvərlik tərbiyəsi ümumbəşəri dəyərlər və Azərbaycan xalqının milli-tarixi ənənələri ruhunda həyata keçirilir. Müdafiə sahəsində dövlət idarəetməsi - Azərbaycan Respublikası təhlükəsizliyinin və müdafiəsinin təmini məqsədilə dövlətin hərbi siyasətinin və doktrinasının icrası, habelə müdafiə sənayesi sahəsində vahid dövlət siyasətinin və müdafiə sənayesi sahəsinin inkişafı üzrə səlahiyyətli dövlət orqanlarının qanunvericiliklə müəyyənləşdirilmiş fəaliyyətidir. Müdafiə sahəsində dövlət idarəetməsinin prinsiplərinə "qanunçuluq", "nizami ordu", "qarışıq komplektləşdirmə", "kadr", "mərkəzləşdirilmiş və vahid rəhbərlik", "yüksək hərbi intizam", "daimi döyüş və səfərbərlik hazırlığı", "hərbi qulluqçuların sosial-hüquqi müdafiəsinin təmin olunması" aid edilə bilər.

**Sual 2.** Müdafiə Nazirliyi - müdafiə sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanları kimi

Azərbaycan SSRİ Ali Sovetinin qərarı ilə 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyi yaradıldı. Həmin ilin oktyabr ayının 9-da isə Azərbaycan Silahlı Qüvvələrinin yaradılması barədə qərar qəbul edildi və o zaman keçmiş sovet ordusunun Şıx qəsəbəsindəki 18110 saylı hərbi hissəsinin bazasında Silahlı Qüvvələrin ilk motoatıcı briqadası formalaşdırıldı. Lakin bu zaman silah olduqca az idi. Qeyd edilməsi vacibdir ki, həmin dövrdə cəmiyyətdə hərc-mərclik, anarxiya baş alıb gedirdi. İqtisadiyyat yox dərəcəsində idi. Bir tərəfdən də erməni silahlı birləşmələri havadarlarının köməyi ilə yenicə müstəqilliyini elan etmiş Azərbaycan dövlətinə qarşı Dağlıq Qarabağda müharibə aparırdılar. Bir sözlə, nə paytaxtda, nə cəbhədə, nə də digər regionlarda ordunun formalaşdırılması prosesi lazımı səviyyədə aparıla bilmirdi. Ayrı-ayrı şəxslərin ətrafına yığılan silahlı birləşmələr siyasətə girişərək hakimiyyəti ələ keçirmək istəyirdilər. Başqa sözlə desək, Azərbaycan dövlətçiliyinin mövcudluğu sual altına düşmüşdür. Bütün bu pərakəndəliyi, anarxiyanı, siyasi-hərbi çəkişməni aradan qaldırmaq, qüvvələri bir araya gətirmək, xalqı ətrafında toplamaq üçün vahid liderə, Silahlı Qüvvələrin Ali Baş Komandanına çox ciddi ehtiyac var idi. Əks təqdirdə Azərbaycanın mövcudluğu sual altından çıxmayacaqdı.

Nəhayət, 1993-cü ildə Azərbaycan xalqının layiqlim oğlu H.Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldi və Azərbaycan Ordusunun formalaşdırılması prosesinə başlanılması yeni mərhələyə qədəm qoydu. Məhz H.Əliyev yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən silahlı birləşmələri ləğv edərək, vahid komandanlığa tabe olan nizami ordu yaratdı. Ali Baş Komandanın ön xəttə səfər edərək döyüşçülərimizlə səngərdə görüşməsi və onları döyüşə ruhlandırması öz real bəhrəsini verdi. Siyasiləşmiş silahlı birləşmələr əsl mənada hərbiləşdirildi, pərakəndəlik aradan qaldırılaraq vahid komandanlıq bərqərar oldu və bundan sonra Azərbaycan Ordusu güclənməyə başladı.

Çox keçmədi ki, 1994-cü ilin əvvəllərində Füzuli rayonunun Horadiz qəsəbəsi istiqamətində düşmənə qarşı uğurlu hərbi əməliyyat həyata keçirildi. 1994-cü il mayın 12-də elan olunan atəşkəsdən sonra Azərbaycanda nizami, müasir səviyyyəli ordunun qurulması prosesinə böyük inamla start verildi. Azərbaycan Respublikasının Prezidenti cənab H.Əliyevin 22 may 1998-ci il tarixli sərəncamı ilə 26 iyun "Silahlı Qüvvələr" günü kimi qeyd olunur.

Qeyd edilməsi vacibdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevin siyasi hakimiyyət günlərindəki ilk fəaliyyəti ölkəmizin iqtisadi qüdrətinin artmasına, sosial məsələlərin həllinə və silahlı qüvvələrimizin möhkəmlənməsinə yönəlib. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb.

Hazırda Azərbaycan Ordusu dövlət rəhbərliyinin böyük qayğısı sayəsində özünün yüksək inkişaf mərhələsini yaşayır. Azərbaycan öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır, hərbi qüdrətini yüksəldir.

Ölkəmizdə ordunun bilavasitə idarəedilməsi Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə həvalə edilib. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi **(nəzəri anlayış)** – ölkənin müdafiə vəzifələrinin yerinə yetirilməsi üzrə Azərbaycan Ordusunun idarəedilməsi sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Ölkəmizdə silahlı qüvvələr quru qoşunlarından, hava hücumundan müdafiə və hərbi-hava, hərbi-dəniz qüvvələrindən ibarətdir. Təşkilati cəhətdən Azərbaycan Respublikasının Silahlı Qüvvə-

ləri Əlahiddə Ümumqoşun Ordusundan, birliklərdən, birləşmələrdən, hərbi hissələrdən, hərbi təşkilatlardan və hərbi təhsil müəssisələrindən ibarətdir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri qanunçuluq, nizami ordu, qarışıq komplektləşdirmə, kadr, mərkəzləşdirilmiş və vahid rəhbərlik, yüksək hərbi intizam, daimi döyüş və səfərbərlik hazırlığı, hərbi qulluqçuların sosial-hüquqi müdafiəsinin təmin olunması prinsipləri əsasında qurulur və fəaliyyət göstərilir.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi aşağıdakı səlahiyyətlərə malikdir:

♦ hərbi siyasi vəziyyəti qiymətləndirir və hərbi təhlükənin dərəcəsini müəyyənləşdirir;

♦ silahlı qüvvələrin quruculuq və inkişafı üzrə dövlət proqramının layihələrini hazırlayır və Azərbaycan Respublikası Prezidentinə təqdim edir;

♦ qoşunların döyüş, əməliyyat-taktiki və mənəvi-psixoloci hazırılığına rəhbərlik edir;

♦ Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin hərbi vətənpərvərlik ruhunda tərbiyəsini təşkil edir;

♦ hərbi elminin inkişafına rəhbərlik edir, tədqiqatları təşkil edir və həyata keçirir;

♦ hərbi texnikanın və digər hərbi əmlakın yaradılması, istehsalı və təmiri barədə dövlət sifarişlərini verir;

♦ vətəndaşların hərbi xidmətə hazırlanması məsələlərinə dair qüvvədə olan qanunvericiliyin icrasında iştirak edir;

♦ hərbi vəzifələrin hazırlanmasını və təkmilləşdirilməsini, vətəndaşların həqiqi müddətli hərbi xidmətə çağırılmasını, hərbi qulluqçuların ehtiyata buraxılmasını, toplanışa çağırılmasını, səfərbərliyi və səfərbərlikdən təxris etməni planlaşdırır və təşkil edir;

♦ başqa dövlətlərin silahlı qüvvələri ilə əməkdaşlıq edir;

♦ Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş hallarda müdafiə məsələlərinə aid normativ aktlar qəbul edir və onların icrasına nəzarət edir;

♦ qüvvədə olan qanunvericiliyə müvafiq surətdə hərbi xidmətin keçilməsini təşkil edir, hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial və hüquqi təminatlarını təmin edir;

♦ hərbi qulluqçuların və təşkilatların fəaliyyəti zamanı ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikası qanunvericiliyinin icrasını təmin edir.

Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında qanunvericiliyin vəzifələri hərbi vəzifənin əsaslarını, gənclərin hərbi xidmətə hazırlıq qaydalarını, hərbi xidmətə çağırışın və qəbulun şərtlərini və qaydalarını, hərbi vəzifəlilərin və çağırışçıların hərbi uçot qaydalarını, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsaslarını müəyyənləşdirmək, eləcə də Silahlı Qüvvələr üçün kadrlar hazırlamaq onların daimi döyüş və səfərbərlik hazırlığını saxlamaqdır. Vətənin müdafiəsində iştirak etmək və hərbi xidmət hər bir vətəndaşın Konstitusiya vəzifəsi olmaqla bərabər, həm də onun müqəddəsi borcudur.

***Suala yekun olaraq qeyd edək ki,*** Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə bilavasitə rəhbərliyi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi həyata keçirir. Müdafiə Nazirliyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinə rəhbərlik edən dövlət orqanı olub, onların inkişafına, həmçinin müdafiə vəzifələrinin yerinə yetirilməsinə, hazırlığına görə məsuliyyət daşıyır və öz fəaliyyətində Azərbaycan Respublikası Prezidentinə tabedir.

Ölkəmizdə silahlı qüvvələr quru qoşunlarından, hava hücumundan müdafiə və hərbi-hava, hərbi-dəniz qüvvələrindən ibarətdir. Təşkilati cəhətdən Azərbaycan Respublikasının Silahlı Qüvvələri Əlahiddə Ümumqoşun Ordusundan, birliklərdən, birləşmələrdən, hərbi hissələrdən, hərbi təşkilatlardan və hərbi təhsil müəssisələrindən ibarətdir.

**Sual 3.** Silahlı Qüvvələrdə dövlət qulluğunun anlayışı, hüquqi əsasları və şərtləri

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin quruculuq prinsipləri, sayı və tərkibi, komplektləşdirmə, yerləşdirmə və səfərbərlik qaydası «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» Azərbaycan Respublikasının Qanunu və digər qanunvericilik aktları ilə müəyyən olunur.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin komplektləşdirilimәsi və hərbi xidmət keçmə Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında və *Hərbi vəzifə və hərbi xidmət haqqında Azərbaycan Respublikasının* qanunlarına, habelə digər qanunvericilik aktlarına müvafiq surətdə həyata keçirilir.

*Hərbi xidmət dedikdə, dövlət qulluğunun xüsusi növü olmaqla Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətlərdə Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin həyata keçirdikləri xidməti fəaliyyət başa düşülür.*

Hərbi vəzifə isə qanunvericiliklə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası vətəndaşlarının hərbi qeydiyyatı, çağırışaqədərki hazırlığı, hərbi xidmətə çağırışı, çağırış üzrə və könüllü hərbi xidmətkeçməsi, ehtiyatda olması, toplanışlara çağırışı və toplanış keçməsi, səfərbərlik üzrə vəzifələrin yerinə yetirilməsidir.

***Silahlı Qüvvələrdə dövlət qulluğunun hüquqi əsaslarına aiddir:***

- Azərbaycan Respublikasının Konstitusiyası. Bakı 1995 (2009).
- Hərbi qulluqçuların statusu haqqında Azərbaycan Respublikasının 25 dekabr 1991-ci il tarixli Qanunu.
- *Hərbi vəzifə və hərbi xidmət haqqında Azərbaycan Respublikasının 23 dekabr 2011-ci il tarixli Qanunu.*
- Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında Azərbaycan Respublikasının 29 dekabr 2017-ci il tarixli Qanunu.
- Müdafiə haqqında Azərbaycan Respublikasının 26 noyabr 1993-cü il tarixli Qanunu.
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 23 sentyabr 1994-cü il tarixli Qanunu.
- Hərbi xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 3 oktyabr 1997-ci il tarixli Qanunu.
- Hərbi qulluqçuların pensiya təminatı haqqında Azərbaycan Respublikasının Qanunu 29 aprel 1992-ci il tarixli Qanunu.
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2011-ci il tarixli Fərmanı və s.

**Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsinin I hissəsinə uyğun olaraq "Vətəni müdafiə hər bir vətəndaşın borcudur".**

Azərbaycan Respublikasının 18 yaşına çatmış və sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı hər bir kişi cinsli vətəndaşı Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə bu Qanunla müəyyən edilmiş qaydada müddətli həqiqi hərbi xidmət keçməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsinin II hissəsinə uyğun olaraq vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, qanunla müəyyən edilmiş hallarda həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasına yol verilir. Hərbi uçot ixtisası olan 19

yaşından 40 yaşınadək Azərbaycan Respublikasının qadın vətəndaşları özlərinin razılığı ilə hərbi qeydiyyata götürülür və bağlaşma əsasında Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə hərbi xidmətə qəbul edilirlər.

Vətəndaşların hərbi xidmətə hazırlanması məzmunca çağirişaqədərki hazırlıq, vətəndaşların xüsusi hərbi ixtisaslar üzrə hazırlanması və ali təhsil müəssisələri tələbələrinin zabitlər hazırlanan xüsusi proqram üzrə hərbi hazırlığından ibarətdir.

17 yaşına çatmış vətəndaşlar və çağırışçılar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş təhsil müəssisələrində işdən ayrılmaqla xüsusi hərbi ixtisaslar üzrə hazırlıq keçə bilərlər.

Azərbaycan Respublikasının Nazirlər Kabineti xüsusi hərbi ixtisasların siyahısını və hazırlıq proqramını müəyyən edir və həmin ixtisaslar üzrə 17 yaşına çatmış vətəndaşların və çağırışçıların hazırlanması üzrə sifarişlər verir. Bu ixtisaslar üzrə hazırlanmalı olan 17 yaşına çatmış vətəndaşların və çağırışçıların sayı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

İş yerindən ayrılmaqla çağırışaqədərki hazırlığa cəlb edilən vətəndaşların təhsil dövründə iş yeri, vəzifəsi və iş yeri üzrə orta əmək haqqı saxlanılır, habelə təhsil yerinə gedib-gəlmək haqqı iş yeri üzrə ödənilir.

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti çağırışaqədərki hazırlıq keçməyə cəlb etdiyi vətəndaşların məşğələlərə (dərslərə) gəlmədikləri barədə onların iş yerinə və müvafiq icra hakimiyyəti orqanına məlumat verir.

Ali təhsil müəssisələrində xüsusi proqram üzrə zabitlərin hazırlanması qaydası və müvafiq hərbi ixtisasların siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Əyani təhsilalma formasında təhsil alan tələbələrin xüsusi proqram üzrə hərbi hazırlığı ali təhsil müəssisəsində təşkil edilir və keçirilir.

Zabitlər hazırlanan xüsusi proqram üzrə hərbi hazırlığı sağlamlıq vəziyyətinə görə zabitlərin hərbi xidmətinə yararlı olan tələbələr keçirlər.

Tələbələrin hərbi hazırlığına ümumi rəhbərliyi Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

Qeyd edilməsi zəruridir ki, qanunvericilkdə müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət verilməsi və çağırışdan azad etmə tam həcmdə nəzərdə tutulub.

***Müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət rayon, şəhər, şəhərdə rayon çağırış komissiyasının qərarı ilə aşağıdakı əsaslara görə verilir:***

- ailə vəziyyətinə görə;
- sağlamlıq vəziyyətinə görə;
- təhsili davam etdirmək üçün;
- Azərbaycan Respublikası Milli Məclisinin deputatı və bələdiyyələrə üzv seçilmək üçün namizədliyi qeydə alınmış şəxslərin seçki fəaliyyəti ilə əlaqədar (namizədliyi qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc olunduğu günədək);
- deputat, hakim, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkil (ombudsman) fəaliyyəti ilə əlaqədar.

Çağırışa möhlət hüququnu itirmiş çağırışçılar, habelə möhlət hüququ olmayan və ya çağırışdan azad edilmək üçün bu Qanunda nəzərdə tutulmuş əsasları olmayan, müxtəlif səbəblərə görə müəyyən edilmiş müddətlərdə müddətli həqiqi hərbi xidmətə çağırılmamış şəxslər 35 yaşına çatanadək növbəti çağırış keçirilərkən hərbi xidmətə çağırılmalıdırlar.

***Ailə vəziyyətinə görə müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət himayəsində aşağıdakı şəxslər olan çağırışçılara verilir:***

- başqa övladı olmayan I qrup əlil ata, yaxud ana;
- 3 və daha çox uşaq;
- I qrup əlil arvad;
- 8 yaşınadək 3 və daha çox uşağı olan ana (ailədə ata olmadıqda) və ya ata (ailədə ana olmadıqda);
- 18 yaşınadək və yaxud I qrup əlil qardaş və ya bacı, onları saxlamaq imkanına malik başqa ailə üzvləri olmadıqda.

Çağırışçılara ailə vəziyyətinə görə müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət 35 yaşa qədər verilir. Bu yaşa qədər çağırışdan möhlət hüququnu itirməmiş şəxslər dinc dövrdə müddətli həqiqi hərbi xidmətdən azad olunurlar və ehtiyata keçirilirlər. Burada qanunverici "saxlamaq imkanına malik başqa ailə üzvləri" dedikdə çağırışçının maddi və mənəvi yardıma ehtiyacı olan qardaş və ya bacısını saxlamalı, onlara qayğı göstərməli və bunun üçün real imkanlara malik olan qardaş və ya bacının ailə üzvləri nəzərdə tutur.

Tibbi müayinə zamanı müddətli həqiqi hərbi xidmətə müvəqqəti yararsız sayılmış şəxslərə sağlamlıq vəziyyətinə görə çağırışa möhlət verilir.

Sağlamlıq vəziyyətinə görə çağırışa möhlət 3 il müddətinədək, hər dəfə 1 ildən artıq olmamaq şərti ilə verilir. 3 ildən sonra, sağlamlıq vəziyyətindən asılı olaraq möhlət almış çağırışçılar ya müddətli həqiqi hərbi xidmətə çağırılır, ya hərbi xidmətə yararsız hesab edilərək hərbi uçotdan çıxarılır, ya da dinc dövr üçün hərbi xidmətə yararsız, müharibə dövrü üçün məhdud yararlı hesab edilərək ehtiyata keçirilirlər.

Dinc dövr üçün hərbi xidmətə yararsız, müharibə dövrü üçün məhdud yararlı hesab edilərək ehtiyata keçirilən vətəndaşlar 35 yaşına çatana qədər hər 3 ildən bir təkrar tibbi müayinədən keçirilirlər. Təkrar tibbi müayinə zamanı dinc dövrdə həqiqi hərbi xidmətə yararlı hesab olunanlar ümumi əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

***Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq dövlət qeydiyyatına alınmış, fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilmiş və akkreditasiya olunmuş təhsil müəssisələrində və onların filiallarında təhsilini davam etdirmək üçün aşağıdakı çağırışçılara möhlət yalnız bir dəfə verilir:***

- ümumi təhsil müəssisələrində tam orta təhsil alan, 20 yaşınadək çağırışçılara;
- ilk peşə-ixtisas təhsili müəssisələrində təhsil alan, bu müəssisələrə daxil olana qədər tam orta təhsil almamış 20 yaşınadək çağırışçılara;
- orta ixtisas təhsili müəssisələrində təhsil alan, bu müəssisələrə daxil olana qədər tam orta təhsil almamış 22 yaşınadək çağırışçılara;
- ali təhsil müəssisələrində və onların filiallarında əyani təhsilalma formasında ali təhsil pilləsində (bakalavriat), ali baza tibb təhsili və rezidenturada təhsil alanlara - təhsilini bitirənədək;
- xarici ölkələrdə əyani təhsilalma formasında təhsil alanlara ali təhsil pilləsində (bakalavriat), tibb təhsili üçün ali baza tibb təhsili və rezidenturada (internaturada) təhsil alanlara müvafiq təhsilini bitirənədək.

Ali təhsil müəssisələrindən xaric edilmiş şəxslər 6 ay müddətində ali təhsil müəssisəsinə bərpa olunmadıqda çağırışa möhlət hüquqlarını itirirlər və ümumi əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Təhsilini davam etdirmək üçün müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət almış və müddətli həqiqi hərbi xidmətə çağırılmamış çağırışçılar 35 yaşına çatanadək müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

***Hərbi xidmət həqiqi hərbi xidmətdən və ehtiyatda xidmətdən ibarətdir.***

***Hərbi xidmətin üstünlüyü*** hərbi qulluqçulara və onların ailə üzvlərinə dövlət qayğısının göstərilməsi, bu şəxslərə layiqli həyat şəraitinin yaradılması məqsədilə müvafiq hüquqi aktların qəbul edilməsi və bununla bağlı zəruri tədbirlərin görülməsi, eləcə də təşkilatların üzərinə qanunvericiliklə müəyyən edilmiş öhdəliklərin qoyulmasından ibarətdir.

***Hərbi qulluqçular və hərbi vəzifəlilər əsgər (matros), çavuş, gizir (miçman) və zabit heyətlərinə, zabit heyəti isə kiçik, baş və ali zabit heyətlərinə bölünür.***

***Hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər aşağıdakı hallarda hərbi xidmət vəzifələrinin icrasında sayılırlar:***

- döyüş əməliyyatlarında iştirak edərkən;
- hərbi vəziyyət dövründə, yaxud silahlı münaqişələr zamanı müəyyən edilmiş vəzifələri yerinə yetirərkən;
- döyüş növbəsini (döyüş xidmətini) apararkən, daxili xidmət naryadlarında, qarovulda və qarnizon növbələrində olarkən;
- təlimlərdə və təlimlə bağlı səfərlərdə iştirak edərkən;
- vəzifə borclarını, yaxud komandir (rəis) tərəfindən verilmiş əmr, sərəncam və ya göstərişi yerinə yetirərkən;
- günün nizam qaydaları ilə müəyyən edilmiş xidmət vaxtında və ya xidməti zərurətlə əlaqədar günün digər vaxtlarında hərbi hissənin (müəssisənin) ərazisində olarkən;
- ezamiyyətdə olarkən;
- müalicədə olarkən və müalicə yerinə gedib-gələrkən;
- toplanışlar keçərkən;
- hərbi xidmət yerinə gedib-gələrkən;
- əsirlikdə olarkən (düşmən tərəfinə könüllü keçmə hallarından başqa);
- xidməti vəzifəsini icra edərkən xəbərsiz itkin düşdükdə – şəxs qanunla müəyyən olunmuş qaydada xəbərsiz itkin düşmüş və ya ölmüş elan edilənədək;
- vətəndaşların həyat və sağlamlıqlarını, şərəf və ləyaqətini müdafiə edərkən;
- insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, qayda-qanunun, ictimai təhlükəsizlik və ictimai qaydanın qorunub saxlanılması işində dövlət orqanlarının əməkdaşlarına köməklik göstərərkən;
- fövqəladə halların və ya təbii fəlakətlərin və texnogen xarakterli qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında iştirak edərkən.

***Hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin vəfat etmələri (həlak olmaları), yaxud bədən xəsarəti (yara, travma, kontuziya) almaları, aşağıdakı hallar nəticəsində baş verdikdə hərbi xidmət vəzifələrinin icrası ilə bağlı sayılmır:***

- Günün nizam qaydaları ilə müəyyən edilmiş xidmət vaxtı ərzində komandirin (rəisin) məlumatı olmadan və ya xidmət vaxtından sonra komandir (rəis) tərəfindən verilmiş əmr, sərəncam və ya digər göstərişin yerinə yetirilməsi ilə əlaqədar olmayan hallarda hərbi hissədən (xidmət yerindən) kənarda olması;
- sərxoş vəziyyətdə olması;
- inzibati xətanın və ya cinayətin törədilməsi.

Hərbi xidmət vəzifələrinin icrası ilə bağlı olmayan və ya qanunvericiliyin tələblərinin pozulmasına gətirib çıxaran əmr, sərəncam və göstəriş vermək qadağandır. Belə əmr, sərəncam və göstəriş vermiş komandirlər və rəislər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Həqiqi hərbi xidmətin növlərinə aiddir:

- müddətli həqiqi hərbi xidmət;
- xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarının həqiqi hərbi xidməti;
- müddətdən artıq həqiqi hərbi xidmət;
- gizirlərin və miçmanların həqiqi hərbi xidməti;
- zabitlərin həqiqi hərbi xidməti.

Müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçulara qanunvericiliklə müəyyən edilmiş müddətlər daxilində həqiqi hərbi xidmət keçən əsgərlər, matroslar və çavuşlar aiddirlər.

Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul olunmuş vətəndaşlar kursantlar adlandırılırlar və onların həqiqi hərbi xidməti müddətli həqiqi hərbi xidmətə bərabər tutulur. Kursantlar və onların ailə üzvləri müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara və onların ailə üzvlərinə aid olan hüquqlardan istifadə edir, müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların vəzifələrinə uyğun olan vəzifələr yerinə yetirirlər.

Müvəffəqiyyətsizliklərinə, təhsillərini davam etdirmək istəmədiklərinə və intizamsızlıqlarına görə xüsusi təyinatlı ali təhsil müəssisələrindən xaric edilən (18 yaşınadək və ya xəstəliyi ilə əlaqədar hərbi xidmətə yararsız hesab olunduğuna görə xaric edilən şəxslər istisna olmaqla) kursantlar müddətli həqiqi hərbi xidmət keçmək üçün hərbi hissələrə göndərilirlər. Bu zaman həmin kursantların xüsusi təyinatlı ali təhsil müəssisələrində aldıqları təhsil müddətinin ***hər 4 günü 1 gün sayılmaqla*** müddətli həqiqi hərbi xidmət müddətinə hesablanır və onlar xidmət müddəti başa çatdıqda müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən ehtiyata buraxılırlar.

Hərbi qulluqçuya və hərbi vəzifəliyə onun tutduğu vəzifədən, hərbi və ya xüsusi hazırlığından, hərbi xidmət müddətindən, ehtiyatda olma vəziyyətindən, qoşun növünə və ya xidmətinə mənsubiyyətindən və xidmətlərindən asılı olaraq müvafiq hərbi rütbə verilir.

***Qanunvericiliklə nəzərdə tutulan hərbi rütbələrə aiddir:***

| **Hərbi qulluqçuların və hərbi vəzifəlilərin tərkibi** | **Hərbi rütbələr** | |
|---|---|---|
| | **Ümumqoşun** | **Hərbi Dəniz** |
| Əsgərlər və matroslar | Əsgər (kursant)<br>Baş əsgər | Matros (kursant)<br>Baş matros |
| Çavuşlar | Kiçik çavuş<br>Çavuş<br>Baş çavuş | Kiçik çavuş<br>Çavuş<br>Baş çavuş |
| Gizirlər və miçmanlar | Kiçik gizir<br>Gizir<br>Baş gizir | Kiçik miçman<br>Miçman<br>Baş miçman |
| Zabitlər:<br>Kiçik zabitlər | Kiçik leytenant<br>Leytenant<br>Baş leytenant<br>Kapitan | Kiçik leytenant<br>Leytenant<br>Baş leytenant<br>Kapitan-leytenant |
| Baş zabitlər | Mayor<br>Polkovnik-leytenant<br>Polkovnik | 3-cü dərəcəli kapitan<br>2-ci dərəcəli kapitan<br>1-ci dərəcəli kapitan |

| | | |
|---|---|---|
| Ali zabitlər | General-mayor<br>General-leytenant<br>General-polkovnik<br>Ordu generalı | Kontr-admiral<br>Vitse-admiral<br>Admiral |

Tibb və hüquqşünas profilli hərbi uçot ixtisaslarına malik olan zabitlərin və generalların hərbi rütbələrinə müvafiq olaraq "tibb xidməti" və "ədliyyə" sözləri əlavə edilir.

Çavuşlara və gizirlərə (miçmanlara) hərbi rütbələr qoşun və ya xidmət növü göstərilmədən verilir. Ehtiyatda olan vətəndaşların hərbi rütbələrinə "ehtiyatda olan" sözləri, istefada olan vətəndaşların hərbi rütbələrinə isə "istefada olan" sözləri əlavə edilir.

Ali zabit hərbi rütbələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

Hərbi qulluqçuların digər kateqoriyalarına və hərbi vəzifəlilərə hərbi rütbələr "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi"nin tələblərinə müvafiq qaydada verilir.

Həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların hərbi rütbələrdə olma müddəti aşağıdakı kimi müəyyən edilir:

| **Hərbi rütbələrin adları** | **Aviasiyanın uçuş heyətində və sualtı gəmilərdə xidmət edən hərbi qulluqçular üçün** | **Digər hərbi qulluqçular üçün** |
|---|---|---|
| Kiçik çavuş | 6 ay | 6 ay |
| Çavuş | 6 ay | 6 ay |
| Kiçik gizir (kiçik miçman) | 2 il | 2 il |
| Gizir (miçman) | 3 il | 5 il |
| Kiçik leytenant | 1 il | 1 il |
| Leytenant | 2 il | 3 il |
| Baş leytenant, kapitan (kapitan-leytenant) | 3 il | 4 il |
| Mayor (3-cü dərəcəli kapitan) | 4 il | 5 il |
| Polkovnik-leytenant (2-ci dərəcəli kapitan) | 5 il | 6 il |

Əsgər, matros, baş əsgər, baş matros, baş çavuş, baş gizir, baş miçman, polkovnik (1-ci dərəcəli kapitan) və ali zabit hərbi rütbələrində olma müddəti müəyyən edilmir.

Təhsil müddəti 5 il və daha çox olan xüsusi təyinatlı təhsil müəssisələrini bitirmiş hərbi qulluqçular üçün "leytenant" hərbi rütbəsində olma müddəti 1 il müəyyən edilir.

Hərbi xidmət vəzifələrinin icrası zamanı yüksək mənəvi-döyüş keyfiyyətləri göstərmiş, döyüş və ictimai-siyasi hazırlığında, hərbi intizamın möhkəmləndirilməsində yüksək göstəricilərə nail olmuş, nümunəvi xidmət edən və hərbi xidmət vəzifələrini yerinə yetirən hərbi qulluqçulara həvəsləndirmə qaydasında vaxtından əvvəl növbəti hərbi rütbə əvvəlki hərbi rütbədə müəyyən edilmiş xidmət müddətinin ən azı yarısı keçdikdə (müharibə dövründə xidmət müddətindən asılı olmayaraq) və ya əvvəlki hərbi rütbədə müəyyən edilmiş xidmət müddəti bitdikdə onların tutduqları ştat vəzifələri üçün nəzərdə tutulmuş hərbi rütbədən bir pillə yuxarı hərbi rütbə verilə bilər.

Zabitlərə həvəsləndirmə qaydasında polkovnik (1-ci dərəcəli kapitan) hərbi rütbəsi də daxil olmaqla vaxtından əvvəl və ya onların tutduqları ştat vəzifələri üçün nəzərdə tutulmuş hərbi

rütbədən bir pillə yuxarı hərbi rütbə bütün xidmət dövründə müvafiq icra hakimiyyəti orqanı tərəfindən bir dəfə verilə bilər.

Hərbi qulluqçular və hərbi vəzifəlilər (əsgər, matros hərbi rütbəsinə malik olanlar istisna olmaqla) ağır və ya xüsusilə ağır cinayət törətməyə görə məhkum olunduqda məhkəmənin qərarı ilə onlara verilmiş hərbi rütbələrdən məhrum edilərək əsgər (matros) rütbəsinə endirilə bilərlər.

Hərbi qulluqçular (zabitlər istisna olmaqla) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi ilə müəyyən olunmuş qaydada hərbi rütbədən məhrum edilir və onların hərbi rütbələri bu rütbələri vermək hüququ olan vəzifəli şəxslər tərəfindən bərpa edilir.

Hərbi qulluqçuların və hərbi vəzifəlilərin hərbi rütbələri (əsgər, matros, kiçik gizir, kiçik miçman, kiçik leytenant hərbi rütbəsinə malik olanlar istisna olmaqla) digər intizam tənbehi tədbirləri müsbət nəticə vermədikdə bir pillə aşağı salına bilər.

***Ali zabitlərin hərbi rütbələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən, digər hərbi qulluqçuların, habelə hərbi vəzifəlilərin və istefada olan şəxslərin hərbi rütbələri isə "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi"ndə müəyyən edilən qaydada bir pillə aşağı salınır və bərpa olunur.***

**Həqiqi hərbi xidmətə daxilolma**

Həqiqi hərbi xidmətə qəbul üçün müəyyən edilmiş tələblərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda və qaydada bağlaşma əsasında aşağıdakı həqiqi hərbi xidmətlərə könüllü daxil olurlar:

- müddətdən artıq həqiqi hərbi xidmətə – ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilən müddətli həqiqi hərbi xidməti başa çatdırmış hərbi qulluqçular, 40 yaşınadək hərbi vəzifəlilər (zabitlər, gizirlər və miçmanlar istisna olmaqla), habelə 19 yaşından 40 yaşınadək qadınlar;
- xüsusi təyinatlı ali təhsil müəssisələrinin kursantlarının həqiqi hərbi xidmətinə – xüsusi təyinatlı ali təhsil müəssisəsinə qəbul edildiyi ildə 17 yaşı tamam olan və 19 yaşı tamam olmayan vətəndaşlar, habelə zabit hərbi rütbəsi olmayan, xüsusi təyinatlı ali təhsil müəssisələrində oxumaq arzusunu bildirən 18 yaşından 23 yaşınadək hərbi qulluqçular;
- gizirlərin və miçmanların həqiqi hərbi xidmətinə – ən azı tam orta təhsilli, azı bir il hərbi xidmət keçmiş əsgərlər, matroslar, çavuşlar, 40 yaşınadək hərbi vəzifəlilər (zabitlər istisna olmaqla), habelə 19 yaşından 40 yaşınadək qadınlar;
- zabitlərin həqiqi hərbi xidmətinə – hərbi xidmətdə olmağın son yaş həddinə çatmamış ehtiyatda olan zabitlər, habelə ilk zabit hərbi rütbəsi verilməklə 35 yaşınadək həqiqi hərbi xidmətdə olan hərbi qulluqçular, ehtiyatda olan hərbi vəzifəlilər və qadınlar.

Qeyd edilməsi vacibdir ki, bağlaşma əsasında həqiqi hərbi xidmətə, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qəbul olunurlar. Azərbaycan Respublikasının xüsusi təyinatlı ali təhsil müəssisələrini (xarici ölkələrin analoji ali təhsil müəssisələrini) müvəffəqiyyətlə bitirərək ilk zabit hərbi rütbəsi almış Azərbaycan Respublikasının vətəndaşı olan hərbi qulluqçular birbaşa kadr zabit heyətinə keçirilirlər.

**Həqiqi hərbi xidmət müəyyən zaman kəsiyində həyata keçirildiyi üçün qanunvericiliklə onun başlanğıcı və sonu müəyyən edilmişdir.** Belə ki, aşağıdakı günlər həqiqi hərbi xidmətin başlanğıcı sayılır:

1. çağırışçılar üçün – müvafiq icra hakimiyyəti orqanı tərəfindən hərbi hissəyə göndərildikləri gün;
2. bağlaşma əsasında hərbi xidmətə könüllü daxil olanlar üçün – bağlaşmanın imzalandığı gün;

3. kursantlar üçün – xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul olunduqları gün.

Hərbi qulluqçunun həqiqi hərbi xidmətdən buraxılması ilə əlaqədar hərbi hissə komandirinin əmri ilə şəxsi heyətin siyahısından çıxarıldığı gün onun həqiqi hərbi xidmətinin sonu sayılır.

***Qanunvericiliklə dinc dövrdə həqiqi hərbi xidmətdə olmağın son yaş hədlərinə aiddir:***

- müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün – 36,5 yaş;
- müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları, gizirlər və miçmanlar üçün – 45 yaş;
- kiçik zabitlər üçün – 48 yaş;

***baş zabitlər üçün:***

- mayor, polkovnik-leytenant və onlara müvafiq hərbi rütbələri olan zabitlər üçün – 48 yaş;
- polkovnik və ona bərabər hərbi rütbəsi olan zabitlər üçün – 53 yaş;
- ali zabitlər üçün - general-mayor, kontr-admiral, general-leytenant, vitse-admiral - 58 yaş, general-polkovnik, admiral rütbələrində – 63 yaş.

Nəzərə alınması lazımdır ki, “Ordu general” üçün son yaş həddi müəyyən edilmir. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla, hərbi qulluqçuların həqiqi hərbi xidməti davam etdirməsini istisna edən əsaslar olmadıqda onlar həqiqi hərbi xidmətdə olmağın son yaş həddinə çatanadək həqiqi hərbi xidmətdə qala bilərlər.

Həqiqi hərbi xidmətdə olmağın son yaş həddinə çatmış hərbi qulluqçular dinc dövrdə ehtiyata və ya istefaya buraxılırlar (zabitlər, gizir və miçmanlar, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları həqiqi hərbi xidmətdə olmağın son yaş həddinə çatdıqda güzəştli şərtlərlə yaşa görə əmək pensiyasını almaq hüququnu əldə etmirlərsə, öz arzuları ilə həqiqi hərbi xidmətlərini bu hüququ əldə edənə qədər davam etdirə bilərlər).

Həqiqi hərbi xidmətdə olmağın son yaş həddinə çatmış hərbi qulluqçuların razılığı ilə onlar hərbi qulluqçuların müvafiq heyəti üçün ehtiyatda olmağın son yaş həddindən artıq olmamaqla həqiqi hərbi xidmətdə saxlanıla bilərlər.

**Hərbi vəzifələrin yerinə yetirilməsi ilə bağlı tədbirlərin maliyyə və maddi təminatı**

Hərbi vəzifənin yerinə yetirilməsi ilə bağlı tədbirlərin maliyyə və maddi təminatı Azərbaycan Respublikası dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikası büdcəsinin, habelə təşkilatların vəsaiti hesabına, bu Qanunla və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müvafiq icra hakimiyyəti orqanının sifarişi ilə müvafiq icra hakimiyyəti orqanını çağırış məntəqələri ilə təmin etmək, ictimai qaydanı qorumaq, lazımi sayda həkim mütəxəssislər və orta tibb heyəti, dərman vasitələri, alətlər, tibb və təsərrüfat əmlakı, nəqliyyat vasitələri ayırmaq üçün müvafiq tədbirlər görməlidir.

Çağırış komissiyalarının üzvləri, hərbi həkim komissiyalarının üzvləri, müvafiq icra hakimiyyəti orqanında iş üçün ayrılmış həkimlər və orta tibb heyəti, texniki işçilər və xidmət heyəti vətəndaşların ilkin hərbi qeydiyyata alınması, hərbi xidmətə çağırılması, vətəndaşların tibbi müayinəsi, habelə müvafiq icra hakimiyyəti orqanına çağırılanların göndərilməsi zamanı bu vəzifələri yerinə yetirərkən onların əsas iş yerində orta əmək haqqı saxlanılır.

Həqiqi hərbi xidmətə çağırılmış vətəndaşlara mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq iş (təhsil) yerində orta əmək haqqının ən azı üç misli məbləğində müavinət ödənilir.

Vətəndaşlar ilkin hərbi qeydiyyata alınmaq və həqiqi hərbi xidmətə çağırılmaqla əlaqədar vəzifələrini yerinə yetirmək üçün lazım olan vaxtda daimi iş yerində orta əmək haqqı saxlanılmaqla işdən (təhsildən) azad edilirlər.

Xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul imtahanlarını vermək üçün vətəndaşlara qanunvericiliklə nəzərdə tutulmuş qaydada ödənişsiz məzuniyyət verilir və onların iş yerində vəzifəsi və orta əmək haqqı saxlanılır.

Hərbi xidmətə çağırılmış vətəndaşların xidmət yerinə aparılması və yolda yeməklə təmin edilməsi Azərbaycan Respublikası dövlət büdcəsinin və Naxçıvan Muxtar Respublikası büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Hərbi xidmətin maliyyə və maddi təminatı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikası dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikası büdcəsinin və təşkilatların vəsaiti hesabına həyata keçirilir.

Həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçuların yaşayış yerinə yola salınması və müəyyən olunmuş digər təminatlarla təmin edilməsi Azərbaycan Respublikası dövlət büdcəsinin və Naxçıvan Muxtar Respublikası büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Toplanışa çağırılmış hərbi vəzifəlilər çağırış üzrə vəzifələrini yerinə yetirdikləri, toplanış yerinə gedib-gəldikləri və toplanış keçirdikləri bütün dövrdə daimi iş yerində orta əmək haqqı saxlanılmaqla işdən azad edilirlər. Göstərilən şəxslərin əmək müqaviləsinə, onlar çağırış vərəqəsi aldıqları gündən toplanışdan qayıdana qədər təşkilatın ləğv edildiyi hallar istisna olmaqla, xitam verilə bilməz. Hərbi vəzifəlinin işlədiyi təşkilat ləğv olunduqda toplanış dövründə ona verilməli məbləğlər ləğv edilən təşkilat və ya onların hüquq varisi tərəfindən ödənilir.

Toplanış dövründə xəstələnmiş hərbi vəzifəlinin iş yeri (vəzifəsi) müalicə müddəti ərzində saxlanılır, ona müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müavinət ödənilir.

## Nəticə

Azərbaycan xalqı tarixin ən mürəkkəb və eyni zamanda şərəfli dövrünü yaşayır. Müstəqilliyin çətin və şərəfli yolları ilə irəliləyərək möhtərəm Prezidentimiz cənab İ.Əliyevin rəhbərliyi altında demokratik, sivil bir cəmiyyət qururuq. Bu isə ölkənin ictimai-siyasi, iqtisadi, hərbi, mədəni həyatının bütün sahələrində köklü islahatlar və təhlükəsizlik sistemində həyata keçirilən hüquqi islahatlar artıq həmin arzuları reallığa çevrib. Belə ki, bu sahəni əhatə edən qanunvericilik aktları ilə ayrı-ayrılıqda tanış oldunuz.

Azərbaycan Respublikasının müdafiəsinin məqsədi istənilən vaxtda və şəraitdə Azərbaycan Respublikasına qarşı hərbi basqının qarşısını almaq və mümkün təcavüzü silahla dəf etmək üçün bütün zəruri şərtlərin yaradılmasıdır.

Azərbaycan Respublikasının müdafiəsi Silahlı Qüvvələrin, iqtisadiyyatın, əhalinin, ərazinin müdafiəyə daim hazır olmasına əsaslanır və dövlətin hərbi doktrinasına uyğun olaraq təşkil edilir. Azərbaycan Respublikasının hərbi doktrinası Silahlı Qüvvələrin quruculuğunda "müdafiə yetərliyi" prinsipi ilə müəyyənləşdirilir və Azərbaycan Respublikası heç bir dövlətə qarşı ərazi iddiasının olmamasına və əgər təcavüz obyekti olmasa beynəlxalq hüquqa əsaslanan öhdəliklərdən başqa heç vaxt heç, bir dövlətə qarşı birinci hərbi əməliyyatlara başlamayacağına əsaslanır.

Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılması ölkənin müdafiə potensialının gücləndirilməsi və ordumuzun maddi-texniki bazasının müasirləşdirilməsinə imkan vermişdir.

Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlərlə yanaşı, silahlı qüvvələrdə xidmət edən hərbi qulluqçuların əmək haqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi onların ailə üzvlərinin də sosial müdafiəsinin gücləndirilməsinə, mənzil-məişət problemlərinin həll edilməsinə təkan vermişdir.